Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 49 (8072) CÜMƏ, 1 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin fevral islahatları

*Problemli kreditləri də həll edən Prezidentin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar əhalinin rifah halının yüksəldilməsinə xidmət edir*

2019-cu il Azərbaycan üçün mühüm sosial islahatların və uğurlu iqtisadi layihələrin reallaşdığı il kimi tarixə düşə bilər. Prezident İlham Əliyevin söylədiyi kimi, əgər geridə qoyduğumuz 2017-ci ili iqtisadi sabitləşmə, 2018-ci ili dərin iqtisadi islahatlar ili kimi başa vurmuşuqsa, bu il daha çox sosial sahədə inqilabi islahatların reallığa çevrildiyi tarix kimi yaddaşlara yazılacaq.

Təkcə fevral ayında bunu şərtləndirən amillərə nəzər yetirsək görərik ki, İlham Əliyevin bir ayda imzaladığı 8 sərəncam, 4 fərman ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edib. Bütün bunlar isə Prezidentin böyük sosial islahatlar paketinin tərkib hissəsidir.

## Minimum əməkhaqqı 130 manatdan 180 manata yüksəldi

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etməkdən, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaqdan, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövləti sosial-iqtisadi sahədə həyata keçirdiyi layihələrlə hər il yeni-yeni nailiyyətlərə imza atır. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsinin, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Fevral ayında Prezidentin böyük sosial paketinin tərkib hissəsi olan sənədlərə bir daha nəzər saldıqda aydın şəkildə dövlətin vətəndaşına qayğısının şahidi oluruq. İlk olaraq dövlət başçısı fevralın 8-də əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncam imzaladı. Bu sənədə əsasən bu il martın 1-dən minimum əməkhaqqı 38,5 faiz (50 manat) artırılaraq 130 manatdan 180 manata yüksəldi. Bu da dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərəcək. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Özəl sektorda əməkhaqqı artımı ən çox avtomobillərin təmir servis xidmətlərində, xırda çörəkbişirmə sexlərində, hüquqi şəxs statusunda olan ticarət ictimai-iaşə sahələrində çalışan işçilərə aiddir. Orta hesabla ölkəmizdə muzdla çalışan ümumi işçilərin 40 faizinin, büdcədən maliyyələşən sahələrdə isə 55 faizinin əməkhaqları artırılıb.

Bu mühüm sosial əhəmiyyətli tədbir, eyni zamanda, əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərəcək, qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına da töhfə verəcək.

Ümumiyyətlə, vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi-sosial tələbatlarının ödənilməsi, layiqli həyat səviyyələrinin təmin edilməsi aparılan uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Son 15 ildə ölkəmizdə əməkhaqları 7 dəfə, eləcə də minimum əməkhaqları 6,5 dəfə artırılıb.

## Ölkə gəncliyinə, tələbələrə dövlət qayğısının əyani təzahürü

Bu gün həmçinin ölkəmizdə təhsilin inkişafı istiqamətində uğurlu islahatlar aparılır, təhsil müəssisələrinin maddi-texniki bazaları möhkəmləndirilir, yüksək ixtisaslı, bacarıqlı mütəxəssislərin hazırlanmasına xüsusi önəm verilir.

Prezident İlham Əliyevin fevralın 14-də imzaladığı bir fərman və iki sərəncam - "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında", "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sənədlər də bu prosesin məntiqi davamıdır.

Prezidentin imzaladığı fərmana əsasən, bu kateqoriyadan olan tələbələr martın 1-dən 210 manat təqaüd alacaq. Xatırladaq ki, əvvəl əlaçı tələbələrin təqaüdü 185 manat idi. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sənədə əsasən isə ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırılacaq.

*Ardı 3-cü səh.*

# *Andres PASTRANA:* "Azərbaycan hökuməti tərəfindən məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlər nümunəvidir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev səfərin və aparılan müzakirələrin ölkəmizlə bu təsisat arasında əməkdaşlıq və dialoqun inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana rəhbərlik etdiyi təşkilatın gündəliyində duran məsələlər və həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, səfər çərçivəsində məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlərin nümunəvi olduğunu bildirdi.

Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və münaqişənin həlli prosesi barədə danışdı.

Görüşdə həmçinin Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2019-cu il*

# Azərbaycan-Gürcüstan münasibətlərində yeni mərhələ başlayır

Salome Zurabişvilinin Gürcüstan Prezidenti kimi ilk rəsmi səfərini Azərbaycana etməsi məlum həqiqətlərə yenidən aydınlıq gətirdi. Belə ki, bu səfər ilk növbədə onu göstərdi ki, Gürcüstan Prezidenti Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi bölgədəki mövqeyini yüksək dəyərləndirir. Eyni zamanda, Salome Zurabişvilinin ilk səfərini məhz Azərbaycana etməsi ikitərəfli əlaqələrin həqiqətən, strateji xarakter daşımasının, siyasi əlaqələrin yüksək səviyyədə olmasının təsdiqi kimi yadda qaldı.



## Davam edən ənənə və alternativi olmayan münasibətlər

Gürcüstanın əvvəlki prezidentləri həmişə Azərbaycana dost münasibəti göstərib, dövlətlərarası əlaqələrin inkişafında maraqlı olublar. Məhz bunun nəticəsində ötən əsrin 90-cı illərinin ortalarından etibarən iki dövlətin birgə siyasi iradəsi ilə mühüm iqtisadi layihələr reallaşdırılıb. Salome Zurabişvili isə yeni seçildiyindən onun Azərbaycan-Gürcüstan əlaqələrinin gələcək perspektivləri ilə bağlı mövqeyinin necə olacağı maraq doğururdu. Lakin onun Bakıda səfər proqramına uyğun olaraq nəzərdə tutulan Prezident İlham Əliyevlə təkbətək ilk görüşdə xanım Salome Zurabişvilinin *"Şadam ki, regiona ilk səfərimi bizim dostumuz olan qardaş ölkəyə edirəm. Mən Azərbaycana dost ölkənin Prezidenti kimi səfərə gəlmişəm. Gürcüstanın bütün prezidentləri Azərbaycanın dostu olub və mən də bu ənənəni davam etdirirəm. Bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz var"* deməsi onun bu səfərinin yalnız pozitiv siyasi dialoq şəraitində keçəcəyini göstərmədi. Bu fikirlər bütövlükdə Azərbaycan-Gürcüstan münasibətlərinin perspektivdə daha da inkişaf edib dərinləşəcəyindən xəbər verdi.

Xatırladaq ki, bu, Salome Zurabişvilinin Azərbaycana ilk səfəri deyil. Hələ 2004-cü ilin may ayında o, Gürcüstanın xarici işlər naziri kimi də Azərbaycana səfər edib.

*Ardı 5-ci səh.*

# Qondarma rejimin növbəti sərsəmləməsi

Bu gün dünya birliyi birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxmasını tələb edir. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib. Amma Ermənistan hələ də beynəlxalq hüquqa hörmətsizlik nümayiş etdirərək həmin sənədlərdə qoyulan tələbi yerinə yetirməkdən imtina edir. Əgər qarşı tərəf buna son qoymasa, Azərbaycan ərazi bütövlüyünü güc hesabına təmin etməli olacaq. Bu gün isə məsələnin sülh yolu ilə həllinə ümidlər tükənmədiyindən münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində səylər davam etdirilir.

Təəssüf ki, Ermənistan problemin dinc müstəvidə həlli məqsədilə ona verilən şansı hələ də lazımınca dəyərləndirmir. Bunu işğal olunmuş ərazilərdə yaradılan separatçı rejimin bundan əvvəlki dövrdə keçirdiyi qondarma "parlament" və "prezident seckiləri" də dəfələrlə təsdiq edib.

Bu günlərdə özünü Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "prezidentinin müşaviri" qismində təqdim edən Tiqran Abramyanın erməni KİV-də səsləndirdiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan danışıqlara xələl gətirən yersiz və qeyri-konstruktiv açıqlamaları da artıq təəccüb doğurmur. O, qoşunların təmas xəttində hazırkı durumu şərh edərək, vəziyyətin qiymətləndirilməsi üçün çoxsaylı amillərin nəzərə alınmalı olduğunu və Azərbaycanın təmas xəttində guya qeyri-stabillik yarada biləcək fəaliyyət apardığını iddia edib.

Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırda aparılan danışıqların ruhuna və formatına zidd olaraq, qondarma rejimin nümayəndələrinin danışıqlara cəlb edilməsi ilə bağlı Tiqran Abramyanın səsləndirdiyi təxribat xarakterli fikir və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının bərabərhüquqlu icmalar olduğunun qeyd edilməməsi Ermənistanın münaqişəsinin birdəfəlik sülh yolu ilə həll edilməsində maraqlı olmadığına dəlalət edir.

Məlumdur ki, qondarma rejim bilavasitə Ermənistanın təsiri altındadır və onun siyasi, maliyyə və hərbi dəstəyi sayəsində mövcuddur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan sadə ermənilər də bu işğalçı siyasətdən əziyyət çəkirlər.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanır. Hər iki icmanın xoşbəxt gələcəyi və regionun təhlükəsiz iqtisadi inkişafı işğalın nəticələrinin aradan qaldırılması ilə mümkündür.

Göründüyü kimi, separatçı rejim unudur ki, indi dünya miqyasında birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə, ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə də Ermənistanın təcridini daha da dərinləşdirə bilib.

Burada nəzərə almaq lazımdır ki, Azərbaycan diplomatiyası uğurlu addımları ilə konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. Ermənistan isə işğal siyasətinə görə bu sistemdən kənarda qalır. Yəni Azərbaycana qarşı yürütdüyü təcavüz və işğal siyasətinə görə Ermənistan bu gün geosiyasi və geoiqtisadi baxımdan özünütəcrid vəziyyətindədir. Ermənistanın düşdüyü geosiyasi və geoiqtisadi təcrid vəziyyətindən yeganə çıxış yolu Azərbaycana qarşı işğala son qoyması, qonşu dövlətlərlə sivil münasibətlər qurmasıdır. Əks təqdirdə, Ermənistanın sosial-iqtisadi və demoqrafik vəziyyətinin daha da ağırlaşması qaçılmazdır.

İşğalçı ölkə bilməlidir ki, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər, reallaşdırılan iqtisadi və institusional islahatlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasında, yeni iş yerlərinin açılması sayəsində əhalinin məşğulluğunun və gəlirlərinin artmasında, yoxsulluq səviyyəsinin daha da azalmasında öz müsbət nəticələrini göstərməkdədir.

Lakin qlobal iqtisadi və maliyyə böhranının ölkə iqtisadiyyatına təsirləri əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə, bunun da nəticəsində, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə müstəvisində baxılma hallarının çoxalmasına rəvac vermişdir.

Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyini təmin etmək məqsədilə **qərara alıram:**

1. Aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu fərman qüvvəyə mindiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödənilsin:

1.1. 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;

1.2. 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;

1.3. 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə - bu fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

2. Bu fərmanın 1-ci hissəsinə əsasən edilən ödəniş ilk növbədə fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilsin, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına verilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

3.1. Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə bu fərmanın 1-ci hissəsində göstərilən tələblər nəzərə alınmaqla, fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizmini (qaydasını), habelə həmin məbləğə hesablanmış faiz və dəbbə pulu (cərimə, penya) üzrə tətbiq ediləcək güzəştləri müəyyən edərək, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin;

3.2. bu fərmanın 1-ci hissəsinə əsasən ediləcək ödənişin ümumi məbləğini, ödəniş ediləcək fiziki şəxslərin siyahısını və hər bir fiziki şəxsə ödəniləcək vəsaitin məbləğini qırx beş gün müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin.

4. Müəyyən edilsin ki, bu fərmanın 1-ci hissəsinə əsasən bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 000 (beş min) ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

5.1. bu fərman qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 000 000,0 (altı yüz səksən iki milyon) manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməsini təmin etsin;

5.2. bu fərmanın 5.1-ci bəndində nəzərdə tutulan tədbirlər nəticəsində bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 000 000,0 (iki yüz on beş milyon) ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin etsin;

5.3. bu fərmandan irəli gələn digər tədbirlərin həyata keçirilməsini təmin etsin.

6. Banklara tövsiyə edilsin ki:

6.1. bu fərmanın 7.1-ci bəndində nəzərdə tutulan siyahı üzrə vaxtı keçmiş kredit borcu olan fiziki şəxslərə yeni güzəştli kredit müqaviləsi bağlanmasını təklif etsinlər;

6.2. fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını təmin edən tədbirlər görsünlər;

6.3. borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

7.1. banklarla birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən edərək, bu barədə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin;

7.2. bu fərmanın 1-ci və 2-ci hissələrinin banklar tərəfindən icrasını nəzarətdə saxlasın və həmin hissələr icra edildikcə, bu fərmanın 5.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət etsin;

7.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Müəyyən edilsin ki, bu fərmanın məqsədləri üçün:

8.1. fiziki şəxslərin xarici valyutada 10 000 (on min) ABŞ dollarınadək və ya milli valyutada 17 000 (on yeddi min) manatadək olan əsas kredit borcları dedikdə onların bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

8.2. 10 000 (on min) ABŞ dollarınadək və ya 17 000 (on yeddi min) manatadək məbləğ dedikdə müvafiq olaraq 10 000 (on min) ABŞ dollarının və ya 17 000 (on yeddi min) manatın da daxil olduğu məbləğ;

8.3. bu fərmanın 5-ci və 7-ci hissələrində fiziki şəxslərin kredit borcları dedikdə onların 2012-ci il yanvarın 1-dən bu fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələrinə əsasən bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

8.4. bank dedikdə banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);

8.5. ləğvetmə prosesində olan bank dedikdə ləğvetmə prosesində olan banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);

8.6. vaxtı keçmiş kredit borcu dedikdə fiziki şəxslərlə 2012-ci il yanvarın 1-dən bu fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş borclar;

8.7. restrukturizasiya dedikdə əsas kredit borclarının ödənilməsi məqsədilə fiziki şəxslərə güzəştli kreditlərin verilməsi;

8.8. güzəştli kredit dedikdə fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə verilən kreditlər;

8.9. faizlərin silinməsi dedikdə vaxtı keçmiş kredit borcları üzrə hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, penya) silinməsi;

8.10. məhkəmədə olan işlərin geri çağırılması dedikdə vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina edilməsi və icra sənədi üzrə icraata xitam verilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tədbirlər görülməsi nəzərdə tutulur.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu fərmanın 5.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanətinin rəsmiləşdirilməsi üçün zəruri tədbirlər görsün;

9.2. bu fərmandan irəli gələn digər tədbirlər görsün.

10. Əmanətlərin Sığortalanması Fonduna və ləğvedici funksiyalarının həvalə olunduğu digər şəxslərə tövsiyə edilsin ki, ləğvetmə prosesində olan banklarda fiziki şəxslərin vaxtı keçmiş əsas kredit borclarının restrukturizasiyasını təmin edən tədbirlər görsünlər.

11. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2019-cu il*

# İ.A.Berdiyevin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Berdiyev İsmayıl Aliyeviç "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2019-cu il*

# S.M.Qəhrəmanovanın 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Sədaqət Məmmədyar qızı Qəhrəmanova 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2019-cu il*

# *Hikmət HACIYEV:* "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir"

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqlar prosesinin formatı ilə bağlı açıqlamasını AZƏRTAC-a şərh edərək deyib:



- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir, formatın dəyişdirilməsi müzakirə mövzusu deyil və ola da bilməz. Danışıqlar prosesi ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişə tərəfləri olaraq Ermənistan və Azərbaycan arasında aparılır. Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra Prezident İlham Əliyev və Nikol Paşinyan arasında üç dəfə təmasın olması, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında dörd dəfə görüşün keçirilməsi danışıqların mövcud format əsasında aparılmasının bariz nümunəsidir.

Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatının dəyişdirilməsi barədə iddiaları qəsdən danışıqları dalana salmaq və danışıqlar prosesini pozmaq cəhdlərindən başqa bir şey deyil. Buna görə məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşür.

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2019-cu il 1 mart tarixindən 160 manat məbləğində müəyyən olunur. Bu qanuna uyğun olaraq təyin edilmiş əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

1.2. 10.2-ci və 13.3-cü maddələrin ikinci bəndləri ləğv edilsin.

**Maddə 2.** Bu qanun 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1515-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1515-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2019-cu il*

# "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12, I kitab, maddə 2222; 2018, № 5, maddə 893, № 7, I kitab, maddə 1395) aşağıdakı dəyişikliklər edilsin:

1. 77.2-ci maddəyə "emitentlər" sözündən sonra "(Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar istisna olmaqla)" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 78.7.1-1-ci maddə əlavə edilsin:

"78.7.1-1. Azərbaycan respublikasının üzv olduğu beynəlxalq təşkilatların emissiya etdiyi qiymətli kağızlarla olan əməliyyatlara;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

# "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1474-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1474-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2019-cu il*

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib

Fevralın 28-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə "İcbari tibbi sığortanın tətbiqi üzrə pilot layihənin icrasının yekunları və qarşıda duran vəzifələr", "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi və vergilər sahəsində şəffaflığın təmin edilməsi, vergi mədəniyyətinin formalaşdırılması, real vergi potensialının müəyyən edilməsi və münbit vergi mühitinin yaradılması istiqamətində qarşıya çıxan problemlər" və "Təbii, iqlim və digər xüsusiyyətləri nəzərə alınmaqla, iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması məsələləri" ilə bağlı mövzular daxil edilib.

Gündəlikdəki birinci məsələ barədə danışan Baş nazir Novruz Məmmədov qeyd edib ki, son illər ölkəmizdə bütün istiqamətlərdə olduğu kimi, səhiyyə sahəsində də geniş islahatlar aparılıb. Bu islahatların mühüm istiqamətlərindən biri də icbari tibbi sığortanın tətbiqi üzrə görülən işlərdir. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığortanın tətbiqinin xüsusi əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib ki, bununla bağlı artıq qanunvericilik bazası da yaradılıb. Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanları ilə Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqi pilot layihə olaraq həyata keçirilməkdədir.

Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidentinin vergi və gömrük sahələrində şəffaflığın təmin edilməsi və səmərəliliyin artırılması, eləcə də iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması barədə qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində hökumətin gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı məlumat verib.

Sonra gündəlikdəki məsələlərə dair İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin, vergilər naziri Mikayıl Cabbarovun, kənd təsərrüfatı naziri İnam Kərimovun məruzələri dinlənilib.

# Azərbaycanın xarici işlər naziri Dünya İqtisadi Forumunun prezidenti ilə görüşüb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Borge Brende nazir Elmar Məmmədyarovu 2019-cu ilin 6-7 aprel tarixlərində İordaniyada keçiriləcək Dünya İqtisadi Forumunun Yaxın Şərq və Şimali Afrika üzrə tədbirinə dəvət edib. B.Brende tədbir çərçivəsində Körfəz ölkələrinin xarici işlər nazirlərinin iştirak edəcəyi Avrasiya seqmentinin çox önəmli olduğunu diqqətə çatdırıb.

Nazir Elmar Məmmədyarov Cenevrəyə səfərinin məqsədlərindən danışıb, eləcə də Azərbaycanın 2019-cu ilin oktyabr ayının 21-26-da Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 18-ci sammitinə evsahibliyi edəcəyi barədə həmsöhbətini məlumatlandırıb.

Nazir Elmar Məmmədyarov Dünya İqtisadi Forumunun prezidentinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan hazırkı danışıqlar prosesi barədə məlumat verib.

Söhbət zamanı, həmçinin regional və qlobal gündəlikdə olan mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Xocalı faciəsi qurbanlarının xatirəsi Rumıniyada dərin ehtiramla anılıb








Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı silsilə tədbirlər çərçivəsində Buxarestdə yerləşən Rumıniya Milli Kitabxanasında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Rumıniyada akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, nümayəndələri, ziyalılar, universitetlərin professor və tələbə heyətləri, Türk İş Adamları Dərnəyinin, Türk-Tatar Birliyinin, "SOCAR Petroleum SA" şirkətinin əməkdaşları, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti, Rumıniya-Azərbaycan İkitərəfli Sənaye və Ticarət Palatası, Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası İdarə heyətlərinin üzvləri, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar, yerli jurnalistlər iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Anım mərasimini giriş sözü ilə açan Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfov qeyd edib ki, Xocalı faciəsi Azərbaycan xalqına və insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərində qadın, qoca və uşaqlar da daxil olmaqla yüzlərlə günahsız dinc əhaliyə qarşı ən qəddar cinayətlər törədiblər.

Səfir bildirib ki, erməni millətçilərinin "böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycan xalqına qarşı törətdikləri bu qətliam nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlı insan olmaqla 613 nəfər qətlə yetirilib, 1275 sakin girov götürülüb, 150 nəfərin taleyi isə bu günədək naməlum olaraq qalmaqdadır. Həmin gecə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb.

Bunun insanlığa sığmayan, öncədən planlaşdırılmış, milli mənsubiyyətinə görə insanların məhv olunması xarakteri daşıyan bir cinayət olduğu və buna görə də beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin soyqırımı olması tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Səfir qeyd edib ki, yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu qanlı faciəyə siyasi-hüquqi qiymət verildi. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən 26 fevral Xocalı soyqırımı günü elan edildi.

Xocalı faciəsinin dinc əhaliyə qarşı yönəldilmiş soyqırımı kimi tanıdılması və bu barədə bütün həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl fəaliyyət həyata keçirildiyini deyən H.Nəcəfov qeyd edib ki, 2008-ci il mayın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq informasiya və təbliğat kampaniyasına başlanılıb. Ötən müddət ərzində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində 70-dən çox ölkədə müxtəlif tədbirlər təşkil edilib. Dünyanın 10-dan çox ölkəsinin parlamenti, 57 ölkəni özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatı, eləcə də ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanı Xocalı qətliamının soyqırımı olduğunu təsdiq ediblər.

Səfir hər il Xocalı soyqırımının ildönümünün respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunduğunu bildirib. Diplomat diqqətə çatdırıb ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ön sıralarında Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduğu ümumxalq yürüşü keçirilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. Əli Həsənov qeyd edib ki, son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədiblər. Erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilib, erməni "alim"lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılıb, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılıb.

Prezidentin köməkçisi XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilərin SSRİ-də yaranmış siyasi vəziyyətdən istifadə edərək Azərbaycana qarşı açıq ərazi iddiası irəli sürmələrindən, Ermənistanda yaşayan 200 minə qədər azərbaycanlının deportasiya edilməsindən, Dağlıq Qarabağın azərbaycanlı icmasına qarşı kütləvi terror və qırğınlar həyata keçirilməsindən, Dağlıq Qarabağ probleminin əsl mahiyyətindən ətraflı bəhs edib.

Xocalı soyqırımı haqqında danışan Əli Həsənov bildirib ki, bu qətliamı törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıdaraq suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarını zorla ələ keçirmək idi. Ermənistan Xocalı faciəsini törətdikdən sonra Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirdi, Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq daha 7 rayonu işğal etdi, bir milyona yaxın azərbaycanlını qaçqın və məcburi köçkünə çevirdi.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan dövləti və şəxsən Prezident İlham Əliyev Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması və təcavüzkarın ifşa olunması üçün bütün zəruri addımları atıb, bu istiqamətdə irəli sürülən ictimai təşəbbüsləri dəstəkləyib. Daha sonra Əli Həsənov son illər geniş vüsət almış "Xocalıya ədalət!" beynəlxalq kampaniyasından bəhs edib, ayrı-ayrı ölkələrin dövlət qurumlarını və ictimaiyyətini, beynəlxalq təşkilatları bu faciəyə adekvat qiymət verməyə çağırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair beynəlxalq səviyyədə qəbul edilmiş qətnamələrdən danışan Əli Həsənov Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının bu qətnamələrdə öz təsbitini tapdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Hazırda Ermənistan bütün beynəlxalq hüquq normalarını pozaraq işğalçılıq siyasətini davam etdirir. Bununla yanaşı, dünyadakı erməni diasporu və lobbisi mütəmadi olaraq 1915-ci il hadisələrini gündəmə gətirərək Azərbaycan torpaqlarının işğalını, Dağlıq Qarabağ problemini və Xocalı soyqırımını, evindən qovulmuş bir milyona yaxın azərbaycanlının böyük faciəsini unutdurmaq və diqqətdən kənarda saxlamaq istəyir. Ona görə də bu günlərdə həm Azərbaycanın, həm də qardaş Türkiyənin vətəndaş cəmiyyəti təşkilatları, diaspor qurumları və ziyalıları öz ölkələrinin rəsmi dövlət orqanlarına hər cür ictimai dəstək verərək Xocalı soyqırımı və Azərbaycan torpaqlarının işğalına dair digər faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalı, baş verənlərin obyektiv qavranılmasına və adekvat hüquqi-siyasi qiymətinin almasına çalışmalıdırlar. Azərbaycan və türk diaspor təşkilatları öz çevikliyini və mütəşəkkilliyini artırmalı, əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər.

Daha sonra çıxış edən Buxarest Dövlət Universitetinin professoru, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Dumitru Balan Azərbaycan xalqının uzaq və yaxın keçmişdə öz dövlətinin qurulması və müstəqilliyinin qorunması uğrunda böyük əziyyətlər çəkdiyini deyib. Bildirib ki, Azərbaycanın Cənubi Qafqazın ən zəngin ölkələrindən biri olması, regiondakı strateji əhəmiyyəti bu çətinliklərin əsas səbəbləridir. Professor Azərbaycanın hər zaman böyük imperiyaların diqqət mərkəzində olduğunu vurğulayıb. Ölkəmizin müstəqillik tarixindən danışan D.Balan Xocalı soyqırımının yalnız Xocalı şəhərinin günahsız sakinlərinə qarşı deyil, həm də bütünlüklə bəşəriyyətə, bütün sivilizasiyalara və beynəlxalq aləmə qarşı törədilən soyqırımı olduğunu vurğulayıb.

Sonda çıxış edən "Geopolitika" jurnalının baş redaktoru Vasile Simileanu Azərbaycan xalqına başsağlığı verərək bildirib ki, rəhbərlik etdiyi "Topform" nəşriyyatı tərəfindən Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının həqiqətlərini təbliğ edən bir sıra kitablar çap edilib. O cümlədən Azərbaycan xalqının müstəqillik tarixi, İrəvan xanlığı, Rumıniya və Azərbaycan arasında münasibətlərə dair kitablar da işıq üzü görüb. Bütün bu nəşrlər rumın cəmiyyətində dost, qardaş Azərbaycan xalqının tarixini dərindən başa düşməyə fürsət yaradıb. Xocalı faciəsinə toxunan V.Simileanu bəşəriyyətə qarşı törədilən bu cinayətin təşkilatçılarının tezliklə cəzalarını alacaqlarına əmin olduğunu və Cənubi Qafqazı hər zaman sülh içində görmək istədiyini vurğulayıb.

Tədbirdə Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" adlı film nümayiş olunub.

Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə ehsan süfrəsi açılıb.

Xocalıda törədilən vəhşilikləri əks etdirən fotoşəkillər və xarici ölkələrin nüfuzlu nəşrlərində bu faciə barədə dərc edilmiş materiallar, rumın, ingilis və digər dillərdə broşürlər, kitablar, CD-lər, məqalələr tədbir iştirakçılarının marağına səbəb olub.

# İlham Əliyevin fevral islahatları

*Əvvəli 1-ci səh.*

Həmçinin təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq 50 faizdən az olmayaraq müəyyənləşdirilib. Göründüyü kimi, bu sənəd daha çox tələbənin təqaüd alaraq öz sosial müdafiəsini gücləndirməsinə xidmət edir.

Digər sərəncama əsasən isə doktorantura pilləsi, yəni elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manat, ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə 170 manat ödəniləcək. Həmçinin magistratura, bakalavriat və orta ixtisas səviyyəsi üzrə akademik göstəriciləri olanların, peşə təhsili müəssisələrinin tələbələrinin də təqaüdü yüksəldi.

Bu sərəncamlara əsasən, təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu sənədlər təkcə bir gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı deyil, bütövlükdə Azərbaycan dövlətinin, ölkə rəhbərinin öz vətəndaşlarına olan insani münasibətinin nəticəsidir.

## Tikinti sahəsində inqilabi yenilik və ya memarlıq amnistiyası

Ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Prezidentin yeni inkişaf konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir.

Lakin bununla belə, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərin hüquq və maraqları nəzərə alınmadan aparılıb. Bu da, öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib.

Elə dövlət başçısının fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman bu sahədə inqilabi yenilik etdi desək, yanılmarıq. Ekspertlər bu fərmanı tikinti sahəsində memarlıq amnistiyası da adlandırdılar.

Xatırladaq ki, Bakıda tikintisinin başa çatmasına və sakinlərin məskunlaşmalarına baxmayaraq, rəsmi olaraq istismarına icazə verilməmiş kifayət qədər bina var idi. Həmin binaların sakinləri yaşadıqları mənzillərlə bağlı çıxarış sənədləri ala bilmirdi və bu, onların mülkiyyət hüquqlarının pozulmasına səbəb olurdu. Həmin sakinlər rəsmi olaraq mənzillər üzərində hüquqlara malik deyildilər. Bu vəziyyət nəticəsində həmin şəxslər dövlətə və bələdiyyələrə əmlak vergisi də ödəyə bilmirdilər. Fərmana əsasən, bundan sonra vətəndaşlar sahib olduqları mənzillərinin çıxarış sənədlərini qısa zamanda ala biləcəklər. Bununla da sakinlərin mülkiyyət hüquqları qısa müddətdə təmin olunacaq. Bu fərmanın əsas üstünlüyü ondan ibarətdir ki, artıq sakinlər və ya mənzil-tikinti kooperativləri müvafiq sənədlərin alınması üçün özləri müraciət etməyəcəklər. Aidiyyəti dövlət qurumları lazımi sənədləri hazır etdikdən sonra vətəndaşlar onları ala biləcəklər.

## Əfqanıstan müharibəsi şəhidlərinin ailəsinə verilən təqaüd 300 manat oldu

Hər zaman şəhid ailələrinə, müharibə veteranlarına böyük diqqət göstərən dövlət başçısı fevralın 21-də imzaladığı bir sərəncam və bir fərmanla Əfqanıstan veteranlarının və onların ailə üzvlərinin heç vaxt dövlətin diqqətindən kənarda qalmadığını təsdiqlədi.

Sərəncama əsasən, Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Prezidentin Ehtiyat Fondundan Əfqanıstan Veteranları İctimai Birliyinə 1 milyon manat vəsait ayrıldı. Fərmana əsasən, Əfqanıstan müharibəsində həlak olan, itkin düşən və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailəsi üçün Prezident təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il martın 1-dən 300 manat müəyyən edildi. Qeyd edək ki, bugünədək həmin məbləğ 220 manat təşkil edirdi. Martın 1-dən bu məbləğ 80 manat artırılıb.

Ölkəmizdə aparılan və ildən-ilə güclənən sosial siyasətin əsas istiqamətlərindən biri kimi, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların rifah halının yaxşılaşdırılması sahəsində mühüm addımlar atılır. Bundan bir qədər əvvəl, dövlət başçısının 30 yanvar tarixli fərmanı ilə şəhid ailəsi üçün Prezident təqaüdünün aylıq məbləği də 58 manat artırılaraq 300 manata çatdırılıb. Hazırda dövlət tərəfindən 12 min 200-dən çox şəhid ailəsinə birdəfəlik maddi yardım kimi 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaq.

## 600 min nəfərin sosial müavinəti, təqaüdü əhəmiyyətli dərəcədə artdı

Bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşlarına olan diqqət və qayğısının təzahürüdür. Dövlət başçısının fevralın 25-də imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam da böyük sosial islahatlar paketinin tərkib hissəsidir.

Sərəncama əsasən, yaşa görə müavinət 73 manatdan 130 manata yüksəldi. I qrup əlilliyə görə müavinət 150 manat, II qrup əlilliyə görə 130 manat, III qrup əlilliyə görə isə 110 manata çatdırıldı.

Bundan başqa, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün verilən 82 manat 150 manata, ailə başçısını itirməyə görə ailə üzvlərinin hər biri üçün 68 manat 80 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) üçün verilən 61 manat 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manat 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manat 55 manata, uşağın anadan olmasına görə 109 manat 200 manata, dəfn üçün ödənilən 146 manat sosial müavinət 300 manata qaldırıldı.

1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin 121 manatdan 150 manata çatdırılması nəzərdə tutulur.

Eyni zamanda, sərəncam Prezident təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaratdı. Belə ki, sərəncamda əsasən I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Prezident təqaüdünün təsis edilməsi, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində təqaüdün təsis edilməsi yer də alıb.

- ✦ 600 min işçinin əməkhaqqısı artırıldı;
- ✦ 223 min insanın pensiya təminatı yaxşılaşdırıldı;
- ✦ Minimum əməkhaqqı 130 manatdan 180 manata yüksəldi;
- ✦ 100 minə yaxın tələbənin təqaüdü artırıldı;
- ✦ Minimum pensiyalar 116 manatdan 160 manata yüksəldi;
- ✦ Şəhid ailəsinə verilən təqaüd 242 manatdan 300 manata qaldırıldı;
- ✦ Əfqanıstan şəhidlərinin ailəsinə verilən müavinət 300 manat oldu;
- ✦ 2,2 milyon nəfər dövlətin sosial təşəbbüslərinin icrasından faydalanacaq.

Sərəncam ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.

Sərəncama əsasən, edilən artımlara cari ilin 9 ayı üçün əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq.

## Məcburi köçkünlərə Prezident qayğısı - 50 faiz artan müavinətlər

Son 15 ildə Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən uğurlu iqtisadi siyasət hazırda sosial məsələləri həll etmək üçün real imkanlar yaradıb və gələcəkdə də bu istiqamətdə fəaliyyətin davamlı olması perspektivlərini müəyyənləşdirib. Dövlət başçısı dəfələrlə qeyd edib ki, iqtisadi uğurlarımız olmasaydı, Azərbaycanda sosial layihələrin reallaşdırılması qeyri-mümkün olardı.

2019-cu ilin əvvəllərindən başlayaraq əhalinin sosial təminatının gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində az qala hər gün Azərbaycan Prezidenti tərəfindən imzalanan yeni bir fərman və sərəncamın şahidi oluruq. Heç bir ölkədə bir ayda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bu qədər fərman və sərəncam imzalanmır.

Prezidentin fevralın 26-da böyük sosial paket çərçivəsində imzaladığı sərəncamlardan biri də məcburi köçkünlərin aylıq müavinətlərinin artırılması ilə bağlı oldu. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılacaq.

Onu da qeyd edək ki, məcburi köçkünlərin hər zaman qayğısına qalan dövlət bu kateqoriyaya aid insanların mənzil-məişət şəraitini də yaxşılaşdırır. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6 mindən 7 minə qədər məcburi köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Bu, həqiqətən də Prezidentin, dövlətin öz vətəndaşlarına olan diqqət və qayğısının təzahürüdür. Görülən bütün işlərin arxasında vətəndaşın həyat səviyyəsinin yüksəldilməsi, onun rifahının yüksəlməsi dayanır.

## 233 min pensiyaçının müavinəti 116 manatdan 160 manata çatdırıldı

Fevralın sonunda pensiyaların artırılması ilə bağlı çox ciddi qərar qəbul edildi. Dövlət başçısı tərəfindən əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair irəli sürülən yeni təşəbbüs də əhalinin sosial müdafiəsində daha bir mühüm addım oldu. Xatırladaq ki, hələ fevralın 7-də Prezident "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" sərəncam imzalayaraq bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasının təmin edilməsini tapşırmışdı.

Prezidentin fevralın 27-də "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə" 19 fevral tarixli 1515-VQD nömrəli Qanununun tətbiqi haqqında" sərəncamına əsasən, minimum pensiya 38,5 faiz artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırıldı.

Bu sərəncam əlbəttə ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, həssas qrupların rifah halının yaxşılaşdırılmasına xüsusi qayğının növbəti təzahürüdür. Minimum pensiya məbləğinin artırılması ümumilikdə 233 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edir. Minimum pensiya məbləğinin artırılması nəticəsində pensiyası artan 233 min nəfərdən 9 min nəfərin pensiyası 93 faiz (75 manat), 26 min nəfərin pensiyası 30 faiz (37 manat), 74 min nəfərin pensiyası 16 faiz (27 manat), 80 min nəfərin pensiyası 7 faiz (15 manat) və s. artır.

Ümumilikdə 233 min nəfərin pensiyasında ümumi orta artım 40 faizədək təşkil edir. Artımın edilməsi üçün bu ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, il ərzində isə 49 milyon manat əlavə vəsait ayrılacaq. Artımdan sonra alıcılıq qabiliyyəti indeksi üzrə ölkəmiz MDB məkanında ön sıraları bölüşür.

## Sosial müavinətlər çox əhəmiyyətli dərəcədə artırılacaq

Son bir ayda müavinətlərin, təqaüdlərin, əməkhaqqının artırılması ilə bağlı sərəncam və fərmanlar göstərir ki, Azərbaycanda sosial məsələlərin həlli yönündə həyata keçirilən siyasət mövsümi deyil, davamlı və prinsipial xarakter daşıyır.

Bunu Prezident İlham Əliyev fevralın 25-də iqtisadi və sosial məsələlərlə bağlı keçirdiyi müşavirədə də bir daha diqqətə çatdırdı. Artıq bir neçə aydır ki, ciddi sosial paket üzərində iş aparıldığını söyləyən dövlət başçısı minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılmasını, digər ödənişlərin verilməsini böyük sosial paketin tərkib hissəsi adlandırdı.

Dövlət başçısı vurğuladı ki, sosial müavinətlərlə bağlı olan məsələ də öz həllini tapacaq və sosial müavinətlər çox əhəmiyyətli dərəcədə artırılacaq: "Bu, çox ciddi sosial paketdir. Bir daha demək istəyirəm ki, bu paketin reallaşması, ilk növbədə, bizim güclü siyasi iradəmizə söykənir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

## Problemli kreditlər - kredit borclarının artan hissəsi silinəcək

Dövlət başçısı uzun müddətdir vətəndaşları narahat edən daha bir proses - problemli kreditlər və bu məsələnin həlli istiqamətində görülən işlərdən söz açmışdı.

Müşavirədən 3 gün sonra isə dövlət başçısı fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən narahatçılığa son qoyuldu.

Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək.

Fərmanda 2015-ci ildə baş verən 21 fevral və 21 dekabr devalvasiyaları ilə bağlı ayrıca bəndlər nəzərdə tutulub. Belə ki, devalvasiyalar nəticəsində kredit borcunun artan hissəsinə güzəşt ediləcək.

Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi birdəfəlik həll edildi. İlham Əliyev vətəndaşla bank arasında etimad mühitini bərpa etdi, məhkəmə çəkişmələri vətəndaşın xeyrinə həll olundu.

Dövlət başçısı bu fərmanla bir daha dövlətin potensialından xalqın mənafeyi üçün istifadə olunduğunu nümayiş etdirdi. Prezident problemli kreditlər məsələsini həll etməklə xalqa xidmətin ən yüksək nümunəsini göstərdi.

## 2019-cu il sosial inkişaf ili kimi tarixə düşəcək

Vətəndaşların sosial rifahının yaxşılaşdırılmasını ən başlıca vəzifə hesab edən Prezident İlham Əliyev bu istiqamətdə artıq bir çox ciddi addımlar atır və xalq da bunu yüksək dəyərləndirir.

Dövlət başçısı əhalini narahat edən bütün məsələlərin həlli istiqamətində aidiyyəti qurumlara ciddi tapşırıqlar verir və icrasının nəticəsi ilə şəxsən özü maraqlanır. Şad gündə də, dar gündə də insanlarla görüşüb səmimi söhbət edir, problemlərini dinləyir.

Əminliklə deyə bilərik ki, İlham Əliyevin böyük sosial islahatlar paketi əsasında hələ çox belə fərman və sərəncamlar imzalanacaq. Elə İlham Əliyev də bunu dəyərləndirərkən demişdi ki, problemli kreditlərdən əziyyət çəkən vətəndaşların da sayı müəyyən edilsə, təqribən 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq.

Görülən işlərə əsasən deyə bilərik ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından əvvəlki illərdən fərqlənən il olacaq. Prezidentin söylədiyi kimi, Azərbaycan bu il də uğurlar və inkişaf yolu ilə gedəcək.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

## "Bakı Metropoliteni" QSC-nin yaradılmasından 5 il keçir

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradıldığı ötən 5 illik dövr ərzində paytaxtın yeraltı sərnişin konveyeri böyük yeniliklər, texnologiyalar, quruculuq meydanına çevrilib. Bu isə sərnişin təhlükəsizliyi və rahatlığını daha da gücləndirməklə, Metropolitenin inkişafına yeni nəfəs gətirib.

*"Metro ən rahat, ən ucuz nəqliyyat vasitəsidir. Elə etməliyik ki, köhnə stansiyaları da bərpa etməklə, orada yenidənqurma işlərini sürətlə aparmaqla yeni stansiyaların tikintisinə nail olaq".*

***İlham ƏLİYEV***



# Yenilik, quruculuq və müasir texnologiyalar

Bakı metrosunun son 5 ili stansiyalarda aparılan təmir işləri, yeraltı sarayların yenidən qurulması, bir neçə stansiyada istismar müddətini başa vurmuş eskalatorların dəyişdirilməsi ilə yanaşı, yolların yenidən qurulması, tunellərin mühafizəsi üzrə işlərin həcm genişliyi ilə yanaşı, yeni sahələrdə tikintinin davam etdirilməsi ilə səciyyələnir. Bütün bunlar barədə ətraflı danışmaq bir məqalənin imkanları xaricindədir. Buna görə də bu işlərin mahiyyəti barədə qısa məlumatla kifayətlənmək məcburiyyətindəyik.

Təmirin keyfiyyətinin yüksəldilməsi üzrə görülən tədbirlər təkcə maddi-texniki təchizatın yaxşılaşdırılmasının nəticəsi deyildi. Sexlərdə təmirçilər üçün əlverişli əmək şəraitinin yaradılması, onların sosial-məişət məsələlərinə diqqətin artırılması da öz sözünü dedi. Qaldırma təmiri sexi əsaslı şəkildə təmir edilməklə yanaşı, orada istehsal prosesinin təkmilləşdirilməsi, əl əməyi həcminin azaldılması üçün tədbirlər görüldü. Arabacıqların, vaqon hissələrinin yuyulması üçün yeni qurğular alındı, vaqonları qaldıran domkratlar yeniləndi, təkər cütlərinin təmiri sexində işin keyfiyyətini artıran tədbirlər tez bir zamanda öz bəhrəsini verdi.

Rəhbərlik lokomotiv təsərrüfatı üzrə planlarında daha uzaq hədəfləri nişana almışdı. Vaqon parkında əsaslı təmirə qədər qaçış müddətini başa vurmuş qatarlar var idi. MDB ölkələrinin əksər metropolitenləri kimi, Bakı metrosunun da deposu bu təmir həcmi üçün nəzərdə tutulmadığından əsaslı təmir işləri bir qayda olaraq, keçmiş SSRİ məkanının sahə müəssisələrində, Moskva, Xarkov, Tbilisi zavodlarında aparıldı və son illər bu işi Moskva elektrik qatarlarının təmiri üzrə zavodun Tbilisi filialı yerinə yetirirdi. Bakıda belə təmir həcminin aparılması üçün "Dərnəgül" deposunun istismara verilməsini gözləmək lazım idi. Amma artıq 2015-ci ildən başlayaraq, əsaslı təmir həcminin bir neçə prosesinin icrasına yerli şəraitdə başlanıldı. İki il sonra isə metropolitenin 50 illik yubileyi ərəfəsində vaqonların əsaslı təmiri üçün xüsusi olaraq inşa edilmiş sex istifadəyə verildi. 2018-ci ilin iyul ayında Bakı Metropoliteninin tarixində ilk dəfə yerli şəraitdə əsaslı şəkildə təmir olunmuş ilk qatar xəttə çıxdı. Artıq bu günə qədər sex 15 vaqonda ən böyük təmir ilə yanaşı, həm də müasir tələblərə uyğun olaraq modernləşdirilmə işləri aparıb.

Vaqon parkının yenilənməsi ilə bağlı ən son məlumat isə ötən ayın son günlərinə aiddir. Belə ki, "Transmaşholdinq" Səhmdar Cəmiyyəti 2019-cu il ərzində Bakı Metropoliteni üçün 30 yeni nəsil vaqonlar istehsal edəcək. Bu barədə müqaviləni şirkətin tərkibinə daxil olan "Metrovaqonmaş" Səhmdar Cəmiyyətinin direktoru Boris Boqatıryov və "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov imzalayıblar. İstehsal olunacaq 81-765.B/766.B modelli vaqonlar innovasiyalar baxımından ən müasir - 4-cü nəslə aiddir. 2017-ci ildən istehsal olunan yeni vaqonlar Bakı Metropoliteninin istismar parkındakı eyni modellərin sayını artıracaq. İndi alınacaq vaqonlar sifarişçinin təklif etdiyi texniki şərtlər əsasında hazırlanır. Əvvəlki nümunələri ilə müqayisədə indiki vaqonların qapıları daha enlidir, qapıların açılıb-bağlanması işıqlı xəbərdarlıq sistemi ilə təmin edilib. Vaqonların konstruksiyası səs-küy və istilik izolyasiyasına, kondisioner, ventilyasiya sisteminə, sərnişinlərin elektron qurğularının doldurulması üçün rozetkalara malikdir. Baş vaqonlarda əlil arabacıqları üçün yerlər ayrılıb. Orijinal qrafikalı işıq sxemi yerli informasiya sisteminə uyğunlaşdırılıb.

Stansiyaların yenidən qurulması üzrə işlərə gəldikdə isə bu proses "İçərişəhər" stansiyasından başlayıb. Bundan sonra eyni proses "Koroğlu" stansiyasında aparıldı. "28 May" stansiyasında eyni həcmli təmir işləri tamam başa çatdıqdan sonra, əsas vestibülün girişi 2015-ci ilin may ayında, Birinci Avropa Oyunları ərəfəsində qapılarını yenidən sərnişinlərin üzünə açdı.

Avropa Oyunları isə metroda xidmət mədəniyyətinin səviyyəsinin monitorinqinə, sınağına çevrildi. Həmin günlər metropoliten günün 19 saatı ərzində - səhər saat 6-dan gecə 1-ə kimi qapılarını sərnişinlərin üzünə açıq saxladı. Oyunların açılış günü qatarlar gecə saat 2-yə kimi, bağlanış günü isə Olimpiya stadionunun sonuncu tamaşaçısı qatara minənə kimi işlədi. Hər iki təntənəli mərasimin nəqliyyat təminatı sarıdan ən ağır yükü metronun üzərinə düşdü. Olimpiya stadionundakı açılış mərasiminə tamaşaçıların yarıdan çoxunu metro qatarları aparıb-gətirdi. Həmin günlər xüsusi rejimdə işləyən yeraltı sərnişin konveyerinin bütün xidmətləri səfərbər olunmuş, lazımi təhlükəsizlik tədbirləri görülmüşdü.






Metropolitençilər Avropa Oyunlarına layiqli nəqliyyat dəstəyi vermək üçün işlərə bir il əvvəldən başlamışdılar. Bu müddət ərzində stansiyalarda, piyada keçidlərində təmir işləri aparılmış, xidmət mədəniyyətinin yüksəldilməsi məqsədilə yeni sərnişin məlumat sistemləri tətbiq edilmiş, stansiyalarda yarışların keçirildiyi idman obyektləri, təhlükəsizlik tədbirləri barədə Azərbaycan və ingilis dillərində məlumatlar səsləndirilmiş, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün sərnişin axınının bütün istiqamətlərində və vaqonlarda videomüşahidə kameralarının funksionallığı genişləndirilmiş, xidmət heyəti, xüsusən də sərnişinlərlə birbaşa təmasda olan işçilər uniformalarla təmin edilmiş, oyunların təşkilatçılarına dəstək olacaq könüllülərlə treninqlər keçirilmişdi. Mühafizə şöbəsinin işçiləri Bakı Metropoliteni üzrə polis şöbəsinin və Fövqəladə Hallar Nazirliyi əməkdaşları ilə təlim-məşqlərdə xüsusi hazırlıq keçmişdilər. "Bakı Metropoliteni" QSC-nin dəvəti ilə bu məsələlərdə 2012-ci ilin London Yay Olimpiya Oyunları zamanı böyük təcrübə toplamış Böyük Britaniya paytaxtı Londonun ən böyük sərnişindaşıma nəqliyyatı şirkəti olan "Transport for London"un mütəxəssisləri Bakıya gələrək birgə treninqlər keçirmişdilər.

Avropa Oyunları ərəfəsində stansiyaların sanitar-gigiyenik vəziyyətinə, xidməti heyətin zahiri görkəminə, xidmət mədəniyyətinin yüksəldilməsinə, metrodan istifadə qaydalarına ciddi əməl olunmasına nəzarət qat-qat artırılmışdı. Qatarlarda stansiyaların adlarının ilk dəfə olaraq ingilis dilində səsləndirilməsi də elə həmin vaxtdan başladı. Oyunların açılış və bağlanış günlərində metropolitençilərin yüksək təşkilatçılığı, peşəkarlığı sayəsində bütün sərnişinlər mənzil başına rahat və təhlükəsiz çatdırıldı. O gecə metropolitençilər bütün xətlərdə Birinci Avropa Oyunlarının tamaşaçılarını daşıyan qatarlara yaşıl işıq yandırdılar.



QSC-nin yaradıldığı ilk 3 il ərzində "20 Yanvar" və "İnşaatçılar" stansiyalarının eskalatorları yeniləri ilə əvəz olundu, altı stansiyanın ("Nəriman Nərimanov", "Gənclik", "Qara Qarayev", "Neftçilər", "Xalqlar dostluğu", "İnşaatçılar") keçidləri əsaslı təmir edildi, "Elmlər Akademiyası" stansiyasında yeni giriş-çıxışın inşasından sonra 1-ci vestibül yenidən qurularaq eskalatorları dəyişdirildi. Stansiyaların əsaslı şəkildə təmiri sonrakı illərdə də planlı şəkildə davam etdirildi. "Nizami" stansiyasında əsaslı təmir işləri yerüstü vestibüldən başqa, hər yerdə aparıldı. Vestibüldə isə bu işlər eskalatorların dəyişdiriləcəyi vaxta saxlanıldı. Bu işlərin görülməsi eskalatorların istismar müddətinin başa çatacağı vaxt mümkün olacaq.

Orta zalın əsas bəzəyi olan Nizami poemalarının süjetlərini əks etdirən mozaik pannolar bərpa edildi. Hər iki yolun divarları, orta zal mərmər libasını dəyişdi. Orta zalın tavanında işıqlanma sistemi yenidən quruldu.

"Elmlər Akademiyası" stansiyasında isə əsas vestibüldə təmir işlərini aparmaq üçün imkan eskalatorların yenilənməsi ilə əlaqədar olaraq yarandı. 2015-ci ilin dekabrında Azərbaycan Prezidentinin iştirakı ilə bu stansiyanın ikinci çıxışı açılmasaydı, stansiya tam bağlanmadan eskalatorları dəyişmək mümkün olmayacaqdı.

2014-cü ilin sonunda "Xətai-Cəfər Cabbarlı" mənzilinin birinci yolunda tunelin sağlamlaşdırma işlərinin başlanması stansiyanın birinci platformasında və orta zalın həmin platformaya yaxın hissəsində əsaslı təmir işlərinin başlanmasına imkan verdi. 2016-cı ilin dekabr ayında bu işlər başa çatdı. Ötən ilin sentyabrın 27-dən isə stansiya istismar müddəti başa çatmış eskalatorların dəyişdirilməsi ilə əlaqədar olaraq tamam bağlandı və orada 3 il əvvəl başlanmış təmir işlərini ikinci mərhələdə davam etdirmək mümkün oldu. Hazırda stansiyada işlər davam edir. Stansiyanın 1968-ci ildən istifadədə olan 3 eskalatoru artıq sökülüb. Onların əvəzinə Almaniyanın "Thyssen Krupp Fahrtreppe" şirkətinin "Victoria Tube" tipli 4 eskalatorunun quraşdırılmasına başlanılıb.

Təmirin bu mərhələsində yerüstü vestibül, stansiyasının 2-ci baş yolunun və platformasının, orta zalın ikinci hissəsinin təmiri, "Xətai-Cəfər Cabbarlı" mənzilinin 2-ci yolunun sağlamlaşdırılması işləri aparılır.

Hazırda təmir işlərinin aparıldığı ikinci stansiya "Bakmil"dir. Metropolitenin yeganə yerüstü stansiyası yaxın günlərdə tam başqa bir görkəmdə öz sərnişinlərini qəbul edəcək.

2018-ci ildə "Sahil" stansiyası da əsaslı təmirdən sonra yenidən daşıma prosesinə qoşuldu. Açılış mərasimində dövlət başçısı iştirak etdi. Genişmiqyaslı təmir və yenidənqurma işləri yerüstü vestibülü, stansiyanın bütün infrastrukturunu, o cümlədən stansiya yollarını, platforma və platformaaltı səviyyələrdə yerləşən texniki sahələri əhatə edib. Mühəndis-texniki qurğularda əsaslı yenidənqurma işləri aparılıb. Burada təmir işləri üçün fürsəti eskalatorların dəyişdirilmə zərurəti yaratmışdı. Bakı Metropoliteninin 1967-ci il noyabrın 6-da istifadəyə verilən birinci buraxılış sahəsinin 5 stansiyasından biri olan "Sahil"in yüyürən pillələri 50 illik istismar müddətini başa vurmuşdu. Onların dəyişdirildiyi müddətdə birçıxışlı stansiyanın bağlanması və sərnişindaşıma prosesinin dayandırılması qaçılmaz idi. 3 köhnə eskalatorunun yerinə bu işlərin aparıldığı digər stansiyalarımızda olduğu kimi, burada da Almaniyanın "Thyssen Krupp" şirkətinin istehsalı olan eskalatorlar quraşdırıldı. Onu da qeyd edək ki, rekonstruksiyadan sonra burada sərnişinlərin xidmətinə 3 yox, 4 eskalator verildi.

Bu sadalananlar əsasən ictimaiyyətin, metrodan istifadə edən sərnişinlərin gözləri önündə görülmüş işlərdir. Hətta təmir zamanı tamam bağlanan stansiyalarda aparılan işlərin gərginliyini, miqyasını oradan dayanmadan keçən qatarlarda belə hiss etmək olub.

Yeniliyin ab-havası tunellərdə, yollarda da görünməyə başlamışdı. Tunel divarlarının bərkidilməsində istifadə olunan dəmir-beton və metal konstruksiyaların istismar müddəti 100 il və daha artıq müddət olsa da, bu həm də yeraltı mühitin geoloji vəziyyətindən, qruntun fiziki xassələrindən və kimyəvi tərkibindən asılıdır.

Bakı Metropoliteninin tunelləri çox mürəkkəb hidrogeoloji şəraitdə tikilib və tunel örtükləri bəzi yerlərdə artıq yarım əsrə yaxındır ki, aqressiv mühitin təsirinə məruz qaldığı üçün keyfiyyətini itirib. Bu, özünü "Cəfər Cabbarlı" və "Xətai" stansiyalarını birləşdirən tunellərdə daha kəskin şəkildə büruzə verməkdə idi. Tikintisi 1949-cu ildən başlayan tunellər, tunel avadanlıqları bütün bu illər ərzində aqressiv mühitin təsiri altında kəskin aşılanmaya məruz qalmışdı. Qruntun qələvi-turşu zənginliyi, eləcə də həmin sahədə hərəkətin uzun illər yalnız bir yolla təşkil edilməsindən havalandırma effektinin olmaması öz nəticəsini gec-tez göstərməli idi. Tunel geyimlərinin vəziyyəti hərəkət üçün artıq ciddi təhlükə mənbəyinə çevrilmişdi və təxirəsalınmaz tədbirlər görülməli idi.

"Bakı Metropoliteni" QSC sədrinin əmri ilə hazırlanan plan əsasında 2015-ci ilin yanvar ayından bu mənzildə sağlamlaşdırma işləri başlandı. 1-ci yolda 127 m sahədə tunel divarlarını bərkitmək üçün köhnə örtük səth təmizlənib, tunelin içərisindən yeni səth yığıldı. Yeni tunel köynəkləri korroziya əleyhinə boya ilə rəngləndi. Eyni zamanda, yolun özülü də yeniləndi.

Stansiyanin birinci yolunun platforma hissəsində aparılan təmir işlərini yuxarıda qeyd etmişdik. Deyilənlərə onu əlavə edə bilərik ki, orta zal və platformada "Durlum GmbH" şirkəti tərəfindən korroziyaya davamlı özəl metal asma tavan, 3D divar lövhələri və LED işıqlandırma sistemləri qurulub. Stansiyanı havalandıran 26 saylı şaxtada gücləndirmə və təmir işləri aparılıb, avadanlıqlar yenilənib.

"Bakı Metropoliteni" QSC-nin daxili imkanları və müvafiq strukturları tərəfindən həyata keçirilən işlər zamanı daha qənaətcil və keyfiyyətli material və avadanlıqlardan istifadəyə üstünlük verilib.

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***





Gürcüstan prezidenti Salome Zurabişvilinin Azərbaycana rəsmi səfəri

# Zaqatala Beynəlxalq Hava Limanında qarşılanma

Gürcüstan prezidenti Salome Zurabişvili Azərbaycana rəsmi səfəri çərçivəsində fevralın 28-də Qax rayonuna səfər edib.

AZƏRTAC xəbər verir ki, Gürcüstan Prezidentini Zaqatala Beynəlxalq Hava Limanında Azərbaycanın Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Azər Hüseyn, ölkəmizin Gürcüstandakı səfiri Dursun Həsənov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə və digər rəsmi şəxslər qarşılayıblar.

Sonra ali qonaq və onu müşayiət edən nümayəndə heyəti Qax rayonuna yola düşüb.



# Gürcüstan prezidenti Qax rayonunun Qaxingiloy kənd tam orta məktəbi ilə tanış olub

Gürcüstan prezidenti xanım Salome Zurabişvili fevralın 28-də Qax rayonunun Qaxingiloy kənd tam orta məktəbi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, prezident Salome Zurabişvili məktəbin sinif otaqlarını gəzdi, müəllim və şagirdlərlə söhbət etdi.

Gürcüstan dövlətinin başçısının diqqətinə çatdırıldı ki, Qaxingiloy kənd tam orta məktəbində 163 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 34 müəllim məşğul olur. Ötən il məktəbi bitirən 8 məzundan 5-i ali məktəbə daxil olub.



Məktəbin şagirdləri Azərbaycan və gürcü dillərində şeirlər söylədilər. Bildirildi ki, respublikanın hər yerində olduğu kimi, Qaxda da milli azlıqların övladlarının hərtərəfli təhsil almaları, onların bilikli, savadlı yetişmələri üçün bütün zəruri addımlar atılır.

Gürcüstan prezidentinə məlumat verildi ki, Qax rayonunda 8 minə yaxın gürcü yaşayır. Gürcülərin yaşadıqları kəndlərdə 6 ümumtəhsil məktəbi, həmçinin Qax şəhərindəki məktəb-liseydə gürcü bölməsi, 6 məktəbəqədər tərbiyə müəssisəsi, 2 mədəniyyət evi, 1 folklor klubu, 2 kitabxana filialı, 1 sahə xəstəxanası, 1 həkim və 1 tibb məntəqəsi, habelə Əlibəyli kəndində Qax Dövlət Gürcü Dram Teatrı fəaliyyət göstərir.

Məktəblə tanış olan Gürcüstanın dövlət başçısı təhsil ocağının müəllim və şagirdlərinə uğurlar arzuladı.

# "Müqəddəs Georgi" kilsəsini ziyarət

Gürcüstan prezidenti Salome Zurabişvili fevralın 28-də Qax rayonunun Qaxingiloy kəndində yerləşən "Müqəddəs Georgi" kilsəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, ali qonağa XIX əsrin sonlarında inşa edilmiş bu ibadətgahda dini ayinlərin icrası üçün hər cür şəraitin yaradıldığı barədə məlumat verildi. Bildirildi ki, bu kilsə 1888-ci ildə xristian din əzabkeşi Müqəddəs Georginin şərəfinə könüllü ianələr və Qafqazda Xristianlığın Bərpası İdarəsinin maliyyəsi ilə tikilib. Kilsə yerli əhəmiyyətli tarixi abidə kimi dövlət tərəfindən qorunur.



Prezident Salome Zurabişvili kilsədə şam yandırdı. Burada dini ayin icra olundu.

Ali qonağın diqqətinə çatdırıldı ki, Azərbaycanın digər rayonları kimi, Qaxda da milli azlıqların adət-ənənələrinə həmişə hörmətlə yanaşılır. Qaxda yaşayan bütün milli azlıqlara dövlət tərəfindən daim xüsusi qayğı göstərilir. Bu fakt bir daha ölkəmizin hər yerində dini tolerantlığın yüksək səviyyədə olduğunu təsdiqləyir. Təsadüfi deyil ki, bu gün Azərbaycanın multikulturalizm modeli bütün dünyada öyrənilir və tətbiq edilir. Dövlətimiz tərəfindən başqa dinlərin abidələrinin qorunması, onların bərpası ölkəmizdəki multikultural siyasətin tərkib hissəsidir.

# Qax şəhərinin qədim "İçəribazar" tarix-mədəniyyət kompleksi ilə tanışlıq

Gürcüstan prezidenti Salome Zurabişvili fevralın 28-də Qax şəhərinin qədim tarixi hissəsi - "İçəribazar" tarix-mədəniyyət kompleksi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, prezidentə tarix-mədəniyyət kompleksi barədə ətraflı məlumat verildi. Bildirildi ki, Qaxda XVI əsrdən mövcud olan "İçəribazar" qala qapıları və qala divarları maddi-mədəniyyət abidəsinin yenidən qurulması ölkəmizdə tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən kompleks tədbirlərin əyani sübutudur. Aparılan tikinti və yenidənqurma işlərindən sonra bu kompleks müasir və füsunkar görkəm alıb. Ərazidə əsrlərdən bəri qorunub saxlanılan maddi-mədəniyyət nümunələri müasir



Qax şəhərinin bir hissəsi olmaqla yanaşı, həm də onun tarixinə verilən dəyəri nümayiş etdirir. Küçə boyunca qədimliyi özündə ehtiva edən qala divarları, təbii daşlar turistlərin diqqətini daha çox çəkir. Milli memarlıq üslubunda çapma çay daşı və qırmızı kərpiclə nəfis şəkildə işlənilən, dekorativ suvaq vurulan küçə divarları da insanda xoş ovqat yaradır. Qalanın giriş və çıxış qapıları ölkəmizin memarlıq ənənələrinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Mərkəzin ərazisindəki açıq səma altında mükəmməl layihə əsasında yaradılan 300 yerlik yay teatrı, sənətkarlıq emalatxanaları Gürcüstan prezidentinin marağına səbəb oldu. Burada tətbiqi sənət nümunələri, xalçaçı, toxucu, ağacoyma sənətkarlıq emalatxanaları, Şərq şirniyyatı dükanı, təndirxana fəaliyyət göstərir.

Gürcüstan prezidentinə məlumat verildi ki, görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmmədin dəmirçi emalatxanası 1880-ci illərdə burada yerləşib.

# Qaxda gürcü icması ilə görüş

Fevralın 28-də Qax rayonuna səfəri çərçivəsində Gürcüstan prezidenti Salome Zurabişvili "El Resort" hotelinin konfrans mərkəzində rayonun gürcü icması ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın dövlət başçısı ölkəmizə, o cümlədən Qax rayonuna səfərinin zəngin təəssüratlarından danışdı, səfərinin çox uğurlu olduğunu bildirdi. Azərbaycan Prezidenti ilə görüşdə çox vacib məsələlərin müzakirə olunduğunu deyən Salome Zurabişvili səmimi qarşılandıqlarını məmnunluqla vurğuladı.

O, səfərinin ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin inkişafına daha da təkan verəcəyini qeyd etdi. Azərbaycanın Gürcüstan üçün strateji tərəfdaş və dost ölkə olduğunu



deyən Salome Zurabişvili bildirdi ki, birgə həyata keçirilən mühüm layihələr xalqlarımızın rifahına xidmət edir.

"Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar öz milli identikliyini qoruyub saxlayıblar", - deyən Salome Zurabişvili ölkəmizdə gürcü mədəniyyətinə göstərilən diqqəti də məmnunluqla vurğuladı.

Görüşdən sonra ali qonağa "El Resort" hotelində yaradılan müasir şərait barədə məlumat verildi. Bildirildi ki, geniş turizm potensialına malik olan Qax rayonunda son illər turizm infrastrukturunun yaradılması istiqamətində dövlət səviyyəsində davamlı iş aparılır, yüksək standartlara uyğun yeni hotellər, istirahət mərkəzləri inşa edilir. 2011-ci ildə istifadəyə verilən "El Resort" hoteli də belə turizm obyektlərindən biridir.

* * *

Fevralın 28-də Gürcüstan prezidentinin Azərbaycana rəsmi səfəri başa çatdı. Zaqatala Beynəlxalq Hava Limanından Gürcüstanın dövlət başçısını rəsmi şəxslər yola saldılar.

# "Balaca şahzadə" Dövlət Musiqili Teatrının səhnəsində



Fevralın 28-də Azərbaycan Dövlət Musiqili Teatrında məşhur fransız yazıçısı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsərinin motivləri əsasında hazırlanan tamaşanın premyerası olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tamaşanın premyerasına baxıb.



Premyeradan əvvəl tamaşanın quruluşçu rejissoru, xalq artisti Cənnət Səlimova səhnə əsəri ilə bağlı təəssüratlarını bölüşüb. Antuan de Sent-Ekzüperinin kitablarının dünyada hər zaman yüksək tirajla satıldığını deyən rejissor bildirib ki, belə böyük yazıçıların əsərlərinin tərcümə olunub Azərbaycan teatrlarında səhnələşdirilməsi sevindirici haldır. "Tamaşanın ərsəyə gətirilməsi bizim üçün texnoloji baxımdan çətin idi. Lakin yaradıcı heyət bunun öhdəsindən məharətlə gələ bildi. Nəhayət, iki il sonra tamaşanın premyerası reallaşdı. Şadam ki, bu gün belə möhtəşəm tamaşanın premyerasına toplaşmışıq", - deyə o qeyd edib.

Səhnə əsərinin süjet xəttində balaca şahzadənin müxtəlif planetlərə səyahətləri obrazlı şəkildə təsvir olunur. Onun qarşılaşdığı personajlarla ünsiyyəti tamaşaçıya fəlsəfi mesajlar verir, böyüklərin dünyası, düşüncələri, həyat fəlsəfəsi, sevgi mövzusu balaca bir uşağın gözü ilə və ibrətamiz kəlamlarla anladılır.

Tamaşanın qeyri-adi səhnə tərtibatı var. Arxa fonda iri monitorlarda göstərilən animasiyalarla aktyorların və balet artistlərinin sinxron şəkildə canlandırdıqları gözəl ifalar, dolğun və cəlbedici rəqs hərəkətləri, ifaçıların oyunu ilə ekrandakı hadisələrin möhtəşəm sintezi, həm də sənət ocağının səhnəsində daha bir yenilikdir.

Maraqla qarşılanan tamaşanın səhnə qrafikası Mehdi Məmmədova, video quraşdırmaları isə Bakı Media Mərkəzinə məxsusdur.

Balaca şahzadə obrazını Musiqili Teatrın azyaşlı iki aktyoru - adı "Qızıl kitab"a yazılan Prezident təqaüdçüsü Atilla Məmmədov və Rahib Məmmədzadə canlandırıblar. Digər rolları əməkdar artistlər Ələkbər Əliyev, Şövqi Hüseynov, aktyorlar Əmrah Dadaşov, Nicat Əli, Aydan Həsənova, Əliməmməd Novruzov, Məhərrəm Qurbanov, Hüseyn Əlili, Rauf Babayev, Emil Heydərov, İbrahim Əlizadə ifa ediblər. Tamaşanın quruluşçu rejissoru xalq artisti Cənnət Səlimova, bəstəkarı ABŞ-da yaşayan həmyerlimiz, beynəlxalq müsabiqələr laureatı Ruslan Ağababayev, musiqi rəhbəri əməkdar artist Vaqif Məstanov, rəssamı Məryəm Ələkbərli, xoreoqrafı Rusiyanın əməkdar incəsənət xadimi, dünya şöhrətli baletmeyster Sergey Gritsay, baletmeysterləri əməkdar artistlər Zakir və Yelena Ağayevlər, səhnələşdirəni Azərbaycan Yazıçılar Birliyinin katibi, şair, yazıçı-publisist İlqar Fəhmidir.

# Azərbaycan-Gürcüstan münasibətlərində yeni mərhələ başlayır

*Əvvəli 1-ci səh.*

O zaman da Prezident İlham Əliyevlə görüşdə söylədiyi fikirlər göstərir ki, Salome Zurabişvili Azərbaycanın Cənubi Qafqazdakı rolunu və xüsusən Gürcüstanla münasibətlərə verdiyi böyük önəmi yüksək qiymətləndirir. Bu gün isə Salome Zurabişvili Gürcüstan Prezidenti kimi yenidən 15 il əvvəl göstərdiyi mövqeni nümayiş etdirir.

## Bakı dostları heç vaxt darda qoymur

Azərbaycan və Gürcüstan 20-ci əsr boyu eyni taleni yaşayıblar. Bir vaxtlar Rusiya imperiyasının tərkibində olan Azərbaycan və gürcü xalqları 1918-ci ildə eyni vaxtda müstəqil dövlətlərini qurub, iki il sonra isə bu müstəqilliyi itirməyə məcbur olublar. 1991-ci ildə hər iki xalq yenidən öz dövlət müstəqilliyini bərpa edib. Elə müstəqilliyə aparan yolda hər iki xalq bir çox dolanbaclardan keçməli olub. Müstəqilliyin ilk illərində istər Azərbaycan, istərsə də Gürcüstan sosial və iqtisadi göstəricilərin tənəzzülə uğraması ilə nəticələnən vətəndaş qarşıdurması və münaqişələrə, ərazi bütövlüyünün pozulmasına məruz qalıb. Bütün bunlar sonrakı dövrdə Azərbaycanda Heydər Əliyevin, Gürcüstanda isə Eduard Şevardnadzenin hakimiyyətə gəlməsindən sonra əlaqələrin tamamilə yenidən inkişafında mühüm rol oynayıb.

Son 15 ildə əlaqələrin inkişafında yeni keyfiyyət dəyişiklikləri baş verib. Bu illərdə xüsusən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, "Cənub qaz dəhlizi"nin inşası əlaqələrin strateji səviyyədə yüksəlməsini təmin edib. Azərbaycanın bu qlobal təşəbbüsləri həm də Gürcüstanı regionun tranzit dövlətinə çevirib, onun maliyyə imkanlarının yüksəlməsinə, əhalisinin sosial rifahının yaxşılaşmasına xidmət edib. Azərbaycan eyni zamanda Gürcüstana sərmayə yatıran əsas ölkədir. SOCAR-ın xətti ilə Gürcüstanda görülən işlər bu ölkənin iqtisadiyyatının inkişafına, dövlət büdcəsinin formalaşmasına böyük töhfələr verir.

Rəsmi ziyafətdə bu barədə danışan Pezident İlham Əliyev enerji əməkdaşlığının digər sahələrdəki əlaqələrdə də çox mühüm rol oynadığını bildirib: *"Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və Gürcüstanda əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır. Birgə həyata keçirdiyimiz irimiqyaslı enerji layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri enerji resurslarımızın nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması baxımından çox əhəmiyyətli hadisələrdir. Bu gün icra etdiyimiz irimiqyaslı transmilli "Cənub qaz dəhlizi" layihəsi ölkələrimiz üçün böyük əhəmiyyət daşıyır. Hazırda uğurla icra edilən bu layihənin dörd elementindən üçü - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihələri başa çatdırılmışdır. Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əlaqələrimizdə də çox mühüm rol oynayır".*

Azərbaycan həm də dost və strateji tərəfdaş ölkələri heç vaxt darda qoymur. Bunu Gürcüstanın timsalında xüsusilə görmək mümkündür. Belə ki, vaxtilə bu ölkədə soyuq və şaxtalı havalarda istiliklə bağlı problem baş verəndə köməyə Azərbaycan çatmış, əhalini təbii qazla təmin etmişdi. 2008-ci ilin böhranlı avqust günlərində də Azərbaycan gürcü xalqına yardımını əsirgəməmişdi.

## Yeni prezident bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlıdır

Azərbaycanla Gürcüstan arasında mükəmməl əməkdaşlıq formatı yaradılıb. İstər energetika, istər nəqliyyat sahəsində yüksək səviyyədə əməkdaşlıq formalaşıb. Bütün bunlar iki dövlətin inkişafına xidmət etməklə yanaşı, regionda, xüsusən Avropa ilə Asiya arasında iqtisadi münasibətlərin dərinləşməsinə töhfə verir. Bunlar, eyni zamanda regiondakı problemlər Bakıda Azərbaycan və Gürcüstan prezidentlərinin görüşlərində əsas müzakirə mövzusu oldu. Görünən odur ki, hər iki ölkənin rəhbəri əlaqələrin daha da inkişafına və yeni layihələrin həyata keçirilməsinə tərəfdardır.

*"İndi qarşımızda duran əsas məqsəd daha böyükmiqyaslı layihələri gündəmə gətirməkdir"* - deyən Salome Zurabişvili xüsusən nəqliyyat dəhlizinin inkişafının əhəmiyyətini qeyd etdi. Nəqliyyat dəhlizinin genişlənməsi ilə bağlı gördüyü işlərə toxunan Gürcüstan Prezidenti ölkəsinin Qara dənizdəki imkanlardan istifadə edərək nəqliyyat dəhlizinin inkişafına çalışdığını dedi, Azərbaycanla birlikdə bu imkanlardan sona qədər istifadə edilməsinin vacibliyini bildirdi.

Gürcüstan prezidenti mədəniyyət, təhsil, turizm sahələrində əlaqələrin inkişafının vacibliyindən də söz açdı. Ümumiyyətlə, Salome Zurabişvilinin toxunduğu məsələlər göstərdi ki, Gürcüstan Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlıdır. Eyni zamanda Salome Zurabişvilinin Prezident İlham Əliyevi Batumi konfransına dəvət etməsi, Azərbaycan mədəniyyət günlərinin Gürcüstanda keçirilməsi təklifi ölkəmizlə əlaqələrə və Azərbaycanın regiondakı roluna olduqca böyük önəm verməsinin göstəricisidir. Bütövlükdə isə bütün bunlar təsdiq edir ki, Azərbaycan-Gürcüstan münasibətlərində yeni mərhələ başlayır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Beynəlmiləl universitet




“UNEC-100” İnkişaf strategiyasında universitetin 2030-cu ilədək beynəlmiləl universitetə çevrilməsi strateji məqsədlərdən biri kimi təsbit olunub.

UNEC-in beynəlmiləlləşməsinin daha da genişləndirilməsi məqsədilə strategiyada hədəflər və fəaliyyət istiqamətləri müəyyən edilib. Beləki, UNEC-də əcnəbi tələbələrin payının artırılması üçün hədəf ölkələrdə UNEC-in imicinin yüksəldilməsi, qəbul ofislərinin açılması, beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrin qurulması, o cümlədən ali məktəblərə qəbul üzrə beynəlxalq statuslu imtahanların nəticələri əsasında tələbə qəbulu imkanlarının genişləndirilməsi nəzərdə tutulub.

Hazırda bakalavr və magistratura pilləsi üzrə dünyanın aparıcı ali təhsil müəssisələri ilə ikili diplom proqramları reallaşdırılan UNEC-də 2030-cu ilədək bu proqramların sayının davamlı artırılması istiqamətində məqsədyönlü işlər aparılır. Strategiyaya görə, UNEC nüfuzlu universitetlərlə bakalavr, magistratura və doktorantura üzrə beynəlxalq ikili diplom proqramların sayını 10-a çatdırmağı və ingilis dilində təhsil proqramlarının sayını davamlı artırmağı hədəf seçib.

UNEC-də kadr potensialının gücləndirilməsi və bu istiqamətdə beynəlxalq təcrübədən istifadə olunması məqsədilə 2030-cu ilə qədər beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbə, müəllim və inzibati işçilərin sayının artırılması da nəzərdə tutulub. Bu məqsədlə effektiv əcnəbi tələbələr ofisinin yaradılması, beynəlxalq mübadilə tələbəsi statusunun müəyyən edilməsi və onlar üçün prosedurların sadələşdirilməsi, beynəlxalq tərəfdaşlarla əlaqələrin effektivliyinin artırılması sənəddə əks olunub. Eyni zamanda əcnəbi tələbə və müəllimlərə Azərbaycan dilini, UNEC-in akademik və inzibati heyət üçün isə xarici dil öyrənmək imkanının yaradılmasına da yer verilib.

Strategiyaya əsasən, ingilis dilində təhsil proqramlarının sayını davamlı artırmaq məqsədilə müasir standartlara cavab verən Xarici Dil Mərkəzinin formalaşdırılması və tələbələr üçün ingilis dilində hazırlıq proqramlarının təklif edilməsi təmin olunacaq.

*“Azərbaycan”*

# “AzerGold” QSC Mülki Müdafiə Günü münasibətilə maarifləndirici tədbir keçirib

28 fevral tarixində “AzerGold” QSC Çovdar filiz emalı sahəsində Ümumdünya Mülki Müdafiə Günü münasibətilə “Məqsədimiz - uşaqların müdafiəsidir!” mövzusunda maarifləndirici tədbir keçirib.




Tədbirdə “AzerGold” QSC-nin İdarə Heyəti sədrinin müavini Oqtay Məmmədov və şirkət əməkdaşları, Daşkəsən Rayon İcra Hakimiyyətinin müavini və fövqəladə hallar komissiyasının sədri Cavanşir Qocayev, Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzinin mülki müdafiə üzrə əməkdaşları, Qızıl Aypara Cəmiyyətinin nümayəndələri, Quşçu kənd icra nümayəndələri, bələdiyyə, məktəb direktorları və şagirdləri, FHN-nin Gəncə şəhər və Daşkəsən rayon Dövlət Yanğından Mühafizə hissələrinin yanğın texnikaları və əməkdaşları, “AzerGold” QSC-nin Çovdar filiz emalı sahəsində yerləşən mülki müdafiə manqaları, podratçı və subpodratçı şirkətlərin nümayəndələri iştirak ediblər. Tədbirdə səslətdirilən çıxışlarda sülh və müharibə dövründə insanların təhlükəsizliyinin təmin edilməsində mülki müdafiənin rolu, quruluşu, məqsədi və vəzifələri haqqında ətraflı söhbət açılıb, mülki müdafiə sahəsində hər bir vətəndaşın, o cümlədən uşaqların maarifləndirilməsinin vacibliyi vurğulanıb. Daha sonra tədbirdə konkret fövqəladə hallar imitasiya edilib və onlara qarşı görülməli olan tədbirlər əyani şəkildə nümayiş etdirilib. Tədbirin sonunda “AzerGold” QSC iştirakçılara tədbirdə iştiraka dair müvafiq sertifikatlar və hədiyyələr təqdim edib.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Mülki Müdafiə Təşkilatına 1993-cü ildə qoşulub. Son illər müharibə və təbii fəlakət qurbanları arasında uşaqların sayının artması səbəbi ilə təşkilat builki Ümumdünya Mülki Müdafiə Gününü uşaqların təhlükəsizliyinə həsr edib. Çovdar filiz emalı sahəsində maarifləndirici tədbir keçirməklə “AzerGold” QSC uşaqların təhlükəsizliyinin təmin edilməsinə və fövqəladə hallara qarşı hazırlığın daha da yüksəlməsinə öz töhfəsini vermək niyyətindədir.

*“Azərbaycan”*

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 01 | Göyçay | Göyçay, Ağdaş, Kürdəmir, Ucar, Zərdab |
| **Fikrət Məmmədov** ədliyyə naziri | 07 | İmişli | İmişli, Sabirabad, Saatlı |
| **Əbülfəs Qarayev** mədəniyyət naziri | 11 | Cəbrayıl (Cocuq Mərcanlı) | Cəbrayıl (Cocuq Mərcanlı), Beyləqan, Füzuli, İmişli, Xocavənd |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 12 | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 14 | Göyçay | Göyçay, Yevlax, Bərdə, Tərtər, Zərdab, Ağdaş, Ucar |
| **Zakir Qaralov** Baş prokuror | 15 | Biləsuvar | Biləsuvar, Cəlilabad, İmişli, Neftçala, Cəbrayıl |
| **Sahil Babayev** əmək və əhalinin sosial müdafiəsi naziri | 15 | Ağdaş | Ağdaş, Mingəçevir, Naftalan, Yevlax, Goranboy, Xocalı |
| **Kəmaləddin Heydərov** fövqəladə hallar naziri | 15 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |
| **Şahin Mustafayev** iqtisadiyyat naziri | 15 | Balakən | Balakən, Zaqatala, Qax |
| **İnam Kərimov** kənd təsərrüfatı naziri | 15 | Qazax | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən |
| **Ramin Quluzadə** nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 15 | Şabran | Şabran, Quba, Qusar, Xaçmaz, Siyəzən |
| **Oqtay Şirəliyev** səhiyyə naziri | 15 | Kürdəmir | Kürdəmir, Hacıqabul, Ağsu, Zərdab, Ucar |
| **Ceyhun Bayramov** təhsil naziri | 15 | Ağcabədi | Ağcabədi, Tərtər, Ağdam, Füzuli, Xocavənd, Laçın |
| **Mikayıl Cabbarov** vergilər naziri | 15 | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 15 | İmişli | İmişli, Beyləqan, Ağcabədi, Füzuli |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 15 | Yevlax | Yevlax, Mingəçevir |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 15 | Ucar | Ucar, Göyçay, Kürdəmir, Ağsu |
| **Muxtar Babayev** ekologiya və təbii sərvətlər naziri | 29 | Ağsu | Ağsu, Kürdəmir, Ucar, Göyçay, Şamaxı, Qobustan |
| **Azad Rəhimov** gənclər və idman naziri | 29 | Mingəçevir | Mingəçevir, Yevlax, Ağdaş, Bərdə, Tərtər, Göyçay, Kürdəmir, Ucar, Zərdab, Ağsu |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 30 | Göyçay | Göyçay, Ucar, Zərdab, Kürdəmir |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır


## “Azərsu” ASC daxili vəsaiti hesabına “Azərsu” ASC tərəfindən Abşeron yarımadasında və respublikanın regionlarında tikinti-quraşdırma və qəza-bərpa işləri həyata keçirilərkən qazılmış asfalt örtüyünün bərpasını təmin etmək üçün ərazidə asfalt örtüyünün vurulması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288) ala bilərlər.

İştirak haqqı 300 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 aprel 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 24 aprel 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 aprel 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Təsərrüfat mallarının satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 06.02.2019-cu il tarixdə keçirilmiş təsərrüfat malları üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “Libra-E” MMC ƏDV daxil olmaqla 19.331,40 (on doqquz min üç yüz otuz bir manat 40 qəpik) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş təşkilatla 28 fevral 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Katriclərin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 05.02.2019-cu il tarixdə keçirilmiş katriclərin alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “Kainat-Print” MMC ƏDV daxil olmaqla 29.489,97 (iyirmi doqquz min dörd yüz səksən doqquz manat 97 qəpik) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş təşkilatla 28 fevral 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Qablaşdırılmış içməli suların satın alınması üçün kotirovka sorğusuna dair BİLDİRİŞ

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr. 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 05 mart 2019-cu il saat 11:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər.

